# Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir məsələni qeyd edib dedi: "Bu, elmin yoxa çıxacağı zaman baş verəcək

Ziyad bin Ləbid (Allah ondan razı olsun) demişdir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir məsələni qeyd edib dedi: "Bu, elmin yoxa çıxacağı zaman baş verəcək". Mən dedim: "Ey Allahın Rəsulu! Biz Quranı oxuduğumuz və övladlarımıza oxutdurduğumuz halda, onlar da Qiyamətə qədər özlərinin və övladlarının oxuduqları halda elm necə yoxa çıxa bilər?" O (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Anan səni itirsin ey Ziyad, mən səni Mədinədə ən fəqih şəxslərdən hesab edirdim, məgər yəhudi və xristianlar tövrat və incili oxumurlarmı?! Lakin, bu iki kitabda olan elmdən qafildirlər".

[Başqasıyla səhih olan] [İbnu Məcə rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sahabələri ararsında ikən onlara belə deyir : Bu dövr, elmin insannlardan uzaqlaşdığı və qaldırıldığı zamandır. Ziyad bin Ləbid (Allah ondan razı olsun) təəccüblənərək Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) sual verdi: Dedi: Elm bizdən necə çəkilib qaldırıla bilər?! Halbuki Quranı oxuduq və onu əzbərlədik; Allaha and olsun ki, onu oxumağa, qadınlarımıza və uşaqlarımıza və onların övladlarına oxutdurmağa davam edəcəyik. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) təəccüblə dedi: Anan səni itirsin Ey Ziyad! Səni Mədinənin alimlərindən hesab edirdim. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etdi ki, elmi itirmək Quranı itirmək demək deyil, elmi itirmək - Quranda olan əmrlərə əməl etməmək deməkdir. Yəhudi və xristianların əllərində tövrat və incilin mövcud olmasına baxmayaraq, onlara fayda vermədi, bu iki kitabın məramından xeyirli nəticə çıxarmadılar, məram və məqsəd isə bildiklərinə əməl eməlləri idi.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee